# Zəngin xəzinə

Beyinlər, ürəklər yorulur bəzən,
Yenə sən deyirsən yorulmamışam.
Səni buyurduğum qədər bəlkə mən
Evdə öz balamı buyurmamışam.

**N.Həsənzadə**

*Burada zəngin bir xəzinə yerləşir. Bu xəzinədə ləl, cavahir yox, bəlkə də ondan da qiymətli, hər kəlməsi, hər sözü müdrik olan əsərlər vardır. Bu xəzinənin qapısını açanda biz orada Nizami müdrikliyini, Füzuli məhəbbətinin böyüklüyünü, Vaqifin ilahi gözəllərini, Vidadinin kədərini görür və onları böyük bir məhəbbətlə oxuyur, bu gözəllikdən doymuruq.*




*Zaqatala şəhərindəki Nizami adına mərkəzi kitabxana 80 ildir ki, oxuculara mədəni xidmət edir. Kitabxananın müdiri Gülnigar Məmmədovanın yazdığı monoqrafiya da məhz bu məsələyə həsr olunmuşdur. "80 il xalqın xidmətində" adlanan bu monoqrafiyada Nizami adına mərkəzi kitabxananın fəaliyyətindən, ümumiyyətlə, kitabxana işindən, kitabxanada çalışan insanların həyatından danışılır.*

*Xalqımız bilik və mənəviyyat xəzinəsi olan kitabxanalara həmişə qayğı və hörmətlə yanaşmış və buna görə də zəngin fondlara malik minlərlə kitabxanalar yaratmışdır.*

*Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, " Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir". Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.*

*Kitabxanalar XİX əsrin axırı və XX əsrin əvvəllərində Azərbaycanın rayonlarında, hətta kəndlərində də fəaliyyət göstərmişlər. Azərbaycanın başqa bölgələrində olduğu kimi qədim yaşayış mərkəzlərindən biri olan Zaqatala rayonunda da kitabxananın nə vaxt yarandığını hələ tam dəqiqliklə söyləmək mümkün deyil.*

*Tanınmış yazıçı, jurnalist Əhməd İsayev "Bir bulaq çağlayır" əsərində yazır: "Nadir şahın ordusu Car-Balakənə hücum edir. Qarətçilər çox şey aparırlar. İçində də Car alimi Hacı Murtuzəlinin kitabxanası". 1735-ci ildə Gəncə sülh müqaviləsi bağlanılır. Rusiya ilə İran arasında münasibətlər sahmana düşür. Həmin kitablar Car məscidinə qaytarılır. 118 il sonra Şamilin mürşidləri kitabları Dağıstana daşıyırlar. 1852-ci ildə Şamil əsir düşdükdən sonra əlyazmalar geri qaytarılır. Coğrafi mövqeyinə görə bir vaxtlar Qafqazın mədəniyyət mərkəzlərindən biri sayılan Tiflisə yaxın olan Zaqatala rayonu XİX əsrin ortalarından həm də böyük mədəni ocağa çevrilmişdir. Həmin illərdə Rusiya öz idealogiyasını Qafqazda yaymaq məqsədilə burada kitabxana yaradılmasına xüsusi fikir vermişdir.*

*Monoqrafiyanın müəllifi Gülnigar Məmmədova yazır ki, 1920- ci ilə qədər Zaqatalada yalnız bir müsəlman qiraətxanası olmuş və o, uzun müddət yerli əhaliyə xidmət göstərən yeganə mədəniyyət ocağı kimi tanınmışdır.*

*Müəllif tarixi faktlara əsaslanaraq 1920-ci ildən başlayaraq Zaqatala rayonunda kitabxana işinin inkişafını verməklə yanaşı, respublikamızın kitabxana işinin inkişaf tempini də verməyə çalışmışdır.*

*Kitabda rayon mərkəzi kitabxanasının tarixi ilə yanaşı, kitabxana işinə dair nəzəri və təcrübi məsələlərə də geniş yer verilmişdir.*

*Mərkəzi kitabxanada ayrı-ayrı şöbələrin təşkili, onların iş prinsipləri, yerinə yetirdikləri funksiyalar, məqsəd və vəzifələri nəzəri və təcrübi cəhətdən elmi şəkildə də izah edilmişdir. Bu da müəllifin kitabxanaşünaslıq elminin incəlikləri ilə tanış olduğunu və təcrübəli praktik kimi formalaşdığını göstərir.*

*Gülnigar xanım həmçinin uzun illərdən bəri kitabxana işi sahəsində çalışan mütəxəssislər haqqında belə deyir: ömrün nurani çağında insan yada düşməyə, xatırlanmağa, əzizlənməyə böyük ehtiyac duyur. Belə vaxtlar qocalar xəzan kimi kövrək olur. Ömrünü, cavanlığını öz yetirmələrinə pay vermiş bu ahıllar indi xatirələrə söykənib ötən günlərə boylanır. Buna görə də mən bu tarixin yollarından addımlamış insanlardan bir çoxunun - əməkdar mədəniyyət işçisi Ömər İmranov, "Əmək veteranı" medalına layiq görülmüş əməkdar mədəniyyət işçisi Xanım Rəcəbova, Səlihət Qurbanova, Səadət Osmanova, Lətifə Qurbanova, Xatirə Əmirova, Nüşabə Əfəndiyeva, Hürü Vəliyeva, Beycət Şabanova, Firuzə Əliyeva, Nurməmməd Osmanov, Mahizər Nuriyeva kimi insanların adlarını qeyd etmək istəyirəm. Onlar kitabxananın 80 illik ömür yollarından keçiblər. Ömrünü, həyatını kitablara bağlayan 100 işçi vardır. Bu sadə peşə adamlarına cansağlığı, xoşbəxtlik arzulayırıq.*

*Gülnigar Məmmədovanın təqdim etdiyi bu kitabda kitaba, kitabxanaya, kitabxanaçı peşəsinə böyük ehtiram, məhəbbət və hörmət qabarıq şəkildə verilmişdir. Kitab oxunaqlığı, məzmunu ilə yadda qalır, müasir və tarixi xarakter daşıyır. Kitabın geniş kitabxana ictimaiyyəti və tariximizlə, mədəniyyətimizlə maraqlanan bütün oxucular arasında maraq doğuracağına əminik. Gülnigar xanıma yeni yaradıcılıq uğurları arzulayırıq.*

***Həvva Vasalova,***
***Zaqatala Rayon Yerli Radio Verilişləri Komitəsinin əməkdaşı***